https://doi.org/10.59849/3006-1342.2025.3.15
UOT 94

*Nərgiz Aydın qızı Rəsulova*
*Gəncə Dövlət Universiteti*
*tarix üzrə fəlsəfə doktoru,dosent,*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu Tarix şöbəsinin müdiri*
*E-mail: nararasulova@bk.ru*
*https://orcid.org/0009-0003-8622-5605*

# ERMƏNİ TARİXİNİN YALANLARI

*Ermənilər tarixlərini izah edərkən tarixi faktlardan daha çox dini, siyasi və ideoloji istiqamətə üstünlük verirlər. Mövcud olduqları coğrafi arealda tarixi hadisələri yalnız erməni nöqteyi-nəzərindən elmi tarix ədəbiyyatına ötürməyə çalışan erməni tarixçiliərinin fikirlərini bir çox tədqiqatçılar tərəfindən tənqidi yanaşılmış və elmi sübutu olan faktlar təqdim edilmişdir.Maraqlıdır ki, erməni tarixi, yaxud Ermənistan tarixi haqında erməni tarixçilərinin öz aralarında belə konsensus yoxdur.*

*Bəşər tarixində etnoslar tarix boyu tam təcrid olunmadan, bir-biri ilə qarşılıqlı əlaqədə olaraq, mədəniyyət, dil və adətləri bir-birindən əxz edərək formalaşır. Bu yanaşma etnosların təkamülünü "müasir millətçilik" baxımından göstərilən "mükəmməl saf millət" mifindən fərqləndirir və tarixi realizmi təmin edir. Lakin təəssüflər olsun ki, erməni tarixçiləri bu mövqedən çıxış etməyərək, özlərini az qala regionun "ən qədim xalqı", "Nuh peyğəmbərin övladları" kimi qələmə verirlər. Erməni tarixçiləri niyə ermənilərin ən qədim xalq olduğunu, onların dövlətinin bütün başqa dövlətlərdən qədim olduğunu, bu nisbətən kiçik, azsaylı xalqın "böyük" xalq olduğunu göstərməyə cəhd edir və çalışırlar? Cavab yəqin ki, belə olardı: olmayanı olan kimi göstərmək, hərislik və vasitəçilik.*

*Açar sözlər:* hayk, "Böyük Ermənistan", Ermənistanın tarixi, miflər, Xorenatsi

Öz yazılı tarixini yaradan zaman hər bir xalqın başqa dillərdə yaradılmış mənbələrdən istifadə etməsi olduqca normal haldır. Lakin tarix uydurmalarla, başqasının tarixinə aid faktlarla doldurulduqda bunu nə təsdiqləmək, nə də haqq qazandırmaq olmaz. Hadisələrə tarixi yanaşma elmilik və obyektivlik tələb edir. Məhz tarixi əsl tarix edən bu əsas prinsiplər olmadıqda, tarix mifologiyaya yaxud fantastikaya çevrilir.

Özlərini az qala regionun "ən qədim xalqı", "Nuh peyğəmbərin övladları" kimi qələmə verən erməni millətçilərinin uydurmalarının əksinə olaraq ermənilər, daha doğrusu, onların ulu babaları hesab olunan qəbilələr, ümumiyyətlə, Asiya qitəsinin yerli əhalisi olmadığı, bu regiona köçüb gəldikləri elmi faktlarla sübut edilmişdir. Müasir ermənilərin əcdadları olduğu güman edilən köçəri qəbilələrin, eramızdan əvvəl təxminən XII əsrdə Balkan yarımadasından hərəkətə başlayaraq, Kiçik Asiyaya keçmələri və Yuxarı Fərat vadisində (Van gölünə doğru ərazilərdə) məskunlaşmaları haqqında bir sıra görkəmli tədqiqatçıların elmi araşdırmaları mövcuddur [4]. M.Dyakonov "Предыстория армянского народа, Ереван, 1968" adlı əsərində (əgər onları həqiqətən ermənilərin əcdadı hesab etmək mümkünsə) ermənilərin əcdadlarının Yuxarı Fərat vadisinə gəlmə olduqlarını tutarlı linqvistik və arxeoloji mənbələrlə sübut edərək, yuxarıdakı konsepsiyasını təsdiqləyərək, əlavə dəlillər gətirmişdir: [5, 34-63][1]"Protoermənilər Yuxarı Fərat hövzəsinə gəlmə (yəni əvvəlcə köçəri maldarlıqla məşğul

[1]И.М.Дьяконов. Малая Азия и Армения около 600 г. до н.э. и северные походы вавилонских царей // «Вестник древней истории», 1981, т. 1, с. 2, с. 34-63.

olan) bir xalq kimi, burada hurrit–urartu sivilizasiyalarının hökm sürdüyü dövrdə ortaya çıxmışlar… Buna görə də protoermənilərin yerli avtoxton mənşəyə malik olması haqqında danışmaq mümkün deyil.” [5, s. 54-55]. Tədqiqatçı əlavə edərək:"Nəzərə almaq lazımdır ki, görünür, protoermənі gəlmələri yerli hurrit əhalisi ilə müqayisədə sayca azlıq təşkil edirdilər." [5, s. 59] - deyə bildirirdi.

Erməni tarixçiləri niyə ermənilərin ən qədim xalq olduğunu, onların dövlətinin bütün başqa dövlətlərdən qədim olduğunu, bu nisbətən kiçik, azsaylı xalqın “böyük” xalq olduğunu göstərməyə cəhd edir və çalışırlar? Cavab yəqin ki, belə olardı: olmayanı olan kimi göstərmək, hərislik və vasitəçilik.

“Erməni xalqının tarixi”ndə [7] iddia edilir ki, guya onlar Qafqazın yerli sakinləri, “Dənizdən dənizə uzanan Böyük Ermənistan”ın davamçılarıdır. “Böyük Ermənistan”ın “məşhur” tədqiqatçılarından biri Leo (Arakel Babaxanyan) tərəfindən Tiflisdə yazılmış Ermənistan tarixinin on cildliyinin birinci cildinin “Mənbələr” paraqrafında deyilir: "Antik müəlliflərdən yunan Strabon (e.ə. 66-cı il - b.e. 24-cü ili) Ermənistan haqqında ilk dəfə ətraflı coğrafi məlumat vermişdi...." [15, s. 147]. Leonun verdiyi bütün məlumatlar tarixi-ədəbi oğurluq xarakteri daşıyan yalandır, çünki Strabonun əsərlərində belə məlumatlar yoxdur. Ani və Kilikiya yarımmüstəqil knyazlıqlarından başqa, erməni tayfasının 1918-ci ilə qədər qədim zamanlardan bizim dövrümüzə qədər heç bir dövləti, hətta yarımdövlət qurumları olmayıb!

Tarixdə heç zaman mövcud olmayan üç dəniz (Aralıq dənizi, Qara dəniz və Xəzər dənizi) arasındakı geniş əraziləri əhatə edən "Böyük Ermənistan" adlı uydurmanı elmə sırıyarkən erməni saxtakarları vaxtilə Fəratın yuxarılarından Van gölünə doğru ərazilərdə mövcud olmuş "Kiçik Ermənistan" və "Böyük ("Velikaya" yox, məhz "Bolşaya", yəni "böyük") Ermənistan" adlanan iki coğrafi vilayətdən birinin - sonuncunun adından istifadə edərək, coğrafi termini siyasiləşdirmişlər. Onu qeyd edək ki, "Böyük Ermənistan" adlanan coğrafi vilayət həqiqətən də "böyük" olduğu üçün deyil, "Kiçik Ermənistan" vilayətinə nisbətən bir qədər "böyük" olduğu üçün belə adlandırılırdı. Yəni bu "böyük" sözün həqiqi mənasındakı "böyük" deyildir!. Əslində isə heç bir ilkin mənbə tarixdə "Böyük Ermənistan" adlanan dövlətin olduğunu təsdiq etmir. İndiyədək heç bir arxeoloji qazıntı zamanı "Böyük Ermənistan" adı həkk olunmuş pul tapılmamışdır. Ermənilərin guya erməni hökmdarı olduğunu iddia etdikləri parfiyalı II Tiqranın adından zərb olunmuş pullarda da onun "Böyük Ermənistan" hökmdarı olduğu təsdiqlənmir [16, s. 94].

Erməni arxeoloqları və tarixçiləri öz saxtakarlıqlarına etibarlı əsaslar təqdim etmək üçün utanmadan “Eramızın 1136-1225-ci illərini əhatə edən Azərbaycan Atabəylər dövlətinin sikkələrini eramızdan əvvəl XIX əsrə aid erməni sikkələri kimi, həmçinin ərəb qrafikası ilə yazılmış qəbirüstü: “Əli, Qasım xan, Həsən” yazılarını ermənicə oxuyub tərcümə edirdilər". Görkəmli şərqşünas, sovet ərəbşünaslıq məktəbinin yaradıcılarından biri, akademik İ.Y.Kraçkovski (1883-1951) bu saxtakarlığı təkzib etmiş, sovet arxeoloqu və şərqşünası akademik B.B. Piotrovski (1908-1990) isə Ermənistan SSR Elmlər Akademiyasının "Tarixi-fəlsəfi jurnalı"nda (№ 3/54 - 1971) ermənilərə təklif edir ki, Azərbaycan Atabəylərinin sikkələrini - erməni sikkələri, eləcə də Metsamor qayalarındakı ərəb yazılarını da erməni yazıları şəklində mənimsəyən bəziləri kimi öz tarixlərini təhrif etməsinlər [13, s. 190].

Maraqlıdır ki, tarixi qədimləşdirilən erməni tarixşünaslığında sıralanan erməni tarixçilərinin şəxsiyyətləri, yaşadıqları dövr və əsərləri haqqında da dəqiq və səhih heç bir tarixi fakta, sənədə rast gəlmək mümkün deyil.

Ermənistanın tarixini yenidən yazan erməni tarixçiləri sənədlərdən daha çox xronika miflərinə müraciət etməsi nəticədə bir çox tarixçilər tərəfindən ifşa edilmişdir. Məsələn, İ.G.Çavçavadzenin “Erməni alimləri və ağlayan daşlar”, V.Y.Veliçkonun “Qafqaz. Rus işi və tayfalararası məsələlər”, N.N.Şavrovun “Zaqafqaziyada rus davasına yeni təhlükə”, Z.M.Bünyadovun “Musa Kalankatlının “Albaniya tarixi”ndə xronoloji uyğunsuzluqlar”,

F.Məmmədovanın "Azərbaycanın tarixi coğrafiyası", V.Quqasyanın "Qafqaz Albaniyası", Kamuran Gürünün "Erməni dosyesi", Castin və Karolin Makkartinin "Türklər və ermənilər" və s.

Ermənilər özlərini "haylar", "Tanrı tərəfindən seçilmiş xalq" (iddia edirlər ki, bəşəriyyət sadəcə olaraq dünya sivilizasiyasına verdikləri "böyük töhfələrə" görə onlara "borcludur"), ölkələrini isə "Hayastan" adlandırırlar. Monoetnik dinin nümayəndələri olaraq onlar bəşəriyyəti iki komponentə bölürlər - haylara və qalanları-qondarma "Böyük Ermənistan"ın nəsillərinin layiq olmadıqları nailiyyətlərini özlərinə aid edənlərə. Əslində isə "Hayastan" toponimi XX əsrin 20-ci illərində yaranmış və etnonim yox, siyasi termin kimi istifadə edilmişdir. Erməni tarixçisi, linqvist Q.A.Kapantsyan (1887-1957) başqa bir erməni alimini tənqid edərək yazırdı ki, "A.Xaçatryan "Erməni tarixi" kitabında Hayasa ölkəsinin ermənilərlə əlaqələrindən bəhs edir. Amma onun "Hayası"nın ermənicə "Hayastan" (Hayas+tun, ev, yəni "Hayas evi") termini ilə müqayisəli təhlili göstərir ki, erməni qrammatik normalarından fərqli olaraq, bu, açıq akkomodasiya (alışmaq, uyğunlaşmaq), yalançı etimologiyadır" [12, s. 163].[2] Məhz bu səbəbdən məşhur avstriyalı şərqşünas Erix Fayql özünün dünyanın bir çox dillərində nəşr olunan "Terror haqqında həqiqət. Erməni terrorizmi - mənşəyi və səbəbləri" məqaləsində deyirdi: "Məsələni aydınlaşdırmaq üçün, ilk növbədə, haylarla ermənilər arasında sərhəd xətti çəkmək lazımdır" [2, s. 17]. Çünki qədimdə "erməni" anlayışı etnonim deyildi. Bu, müasir "rus", "amerikan", "moskoviç" və s. ifadələrlə eyni gündəlik söz idi.

Etnik birlikdən daha çox dini birliyə və qatı ideologiyaya əsaslanan erməni tarixi faktik hadisələrə deyil salnaməçilərin yalanlarına istinad edir. Şərqşünas və qafqazşünas N.Y.Marr (1865-1934): "Erməni kilsəsinin pravoslav kilsəsindən ayrılmasına qədər ermənilərin milli bir adı yox idi. Erməni tarixi ermənilərin qədim zamanlara aid nəql etdikləri nağıldan başqa bir şey deyildir." [6, s. 97-98] - deyə bildirirdi.

Kazus, ərazinin və ya daimi yaşayış yerinin adında deyil, xalqın özünü adlandırmasındadır. Çünki özlərini "hay" adlandırsalar da, dünyaya "erməni" kimi, ərazisi milli kimlik anlayışından kənarda qalan Kiçik Asiyada - Ermənistanda geniş coğrafi məkanın nəsilləri və varisləri kimi təqdim edirlər. Hətta salnaməçi Musa Xorenatsi də öz xalqını "hay" adlandırırdı. O yazırdı: "Biz hayilər kiçik, zəif və bir çox hallarda yad hökmranlığı altında yaşayan bir xalqıq." [8, s. 4].

1830-1831-ci illərdə Anadoluya gələn amerikalı missioner Eli Smit (1801-1857) Ermənistan haqqında ilk dəfə fikirlərini bölüşərək, "Səyahət qeydləri"ndə coğrafi xəritələrdə və kitablarda Türkmənistanı (türkmənlər ölkəsi) ( türklərin yaşadığı ərazi nəzərdə tutulur - N.R.) Ermənistanla əvəz etməli olduğunu yazırdı ki, "gələcəkdə Avropa Türkmənistan əvəzinə Ermənistan adından istifadə etsin." Qeyd edək ki, Henrix Kipertin (1818-1899) o dövrdə Berlində nəşr olunmuş coğrafi xəritəsində birmənalı şəkildə "Ermənistan" adı yoxdur. Lakin "erməni məsələsi"nin yaranması ilə kitablarda və xəritələrdə, həmçinin 1880-ci ildə Leypsiqdə nəşr olunan "Böyük Atlas"da da "Ermənistan" adı çəkilməyə başlandı. Bununla bağlı alman qəzetlərindən biri 1890-cı il noyabrın 16-da yazırdı: "Ermənistan" adının heç bir tarixi və coğrafi əhəmiyyəti yoxdur. O elə geniş yayılıb ki, müsyö Kipert onun sərhədlərini müəyyən etməkdə çətinlik çəkəcək" [13, s. 6].

Bəzi orta əsr Avropa xəritələrində "Ermənistan" sözünün sonradan, üstəlik, tələsik, bu dövrə uyğun gəlməyən tamamilə fərqli şriftlərlə əlavə edilməsi də maraqlıdır.

Erməni alimləri erməni tarixini nə qədər geri götürmək istəsələr də, əslində erməni cəmiyyətinin qədim tarixi ilə bağlı konsensus yoxdur və o, qaranlıq olaraq qalır [1, 12; 11, s. 12, 16]. Raffi kimi tanınan erməni alimi Aqop Melik Aqopyan (1835-1888) "Samvel" əsərində erməni cəmiyyətinin tarixi haqqında bunları deyir:"...Bizim tariximizdə xalq tamam

[2]Капанцян Г. «Хайаса», с.163.

unudulmuşdur. Biz erməni kəndlisinin necə yaşadığını bilmirik. Onun “ağaları” ilə necə münasibətdə olduğunu, nə yeyib nə içdiyini, necə geyindiyini bilmirik....Bizim tariximiz bütün bunlar haqqında susur...Bizim tariximizdə, hətta xalqımızın ən möhtəşəm gücü olan qadınlarımız haqqında belə heç bir məlumat yoxdur...Beləliklə, bizim quru tariximiz tarixçiyə az məlumat verir. Köhnə ədəbiyyatımız kilsə yazılarından qədimə getmir...” [14, s. 1]. Digər erməni alimi, akademik Manuk Abekyan (1865-1944) ermənilərin kim olduğunu və harada formalaşdığının bilinmədiyini açıq mətnlə ifadə edir:“...erməni xalqının mənşəyi nədir, necə və nə vaxt, haradan və hansı yollarla buralara (Qafqaza - N.R.) gəlmişlər, erməni olmazdan əvvəl və sonra hansı xalqlarla əlaqələr qurmuşlar, onun dilinə, etnik mənsubiyyətlərinə kimlər necə təsir göstərmişdir? Bizim əlimizdə bunları isbatlayan açıq və dəqiq məlumatlar yoxdur [3, s. 11]...” Anlaşıldığı kimi, erməni alimlərinin əksəriyyəti ermənilərin qədim tarixi və mənşəyi ilə bağlı öz aralarında razılığa gələ bilmirlər. Məşhur erməni alimi B.İşxanyan (1879-1921) da mifologiyaları dağıdaraq, tarixən bütün Cənubi Qafqazda erməni dövlətləri olmadığını etiraf edirdi: “Ermənilər Qafqazın müxtəlif yerlərində yalnız son əsrlərdə məskunlaşıblar” [9, s. 18].

Ermənistanın tarixi, “Böyük Ermənistan” və erməni xalqının mənşəyi ilə bağlı olan müxtəlif, üstəlik, ziddiyyətli anlayışların əksəriyyəti heç bir elmi izahı olmayan Nuh və onun oğullarının tarixən təkrarlanan dini konsepsiyasına əsaslanırdı. Buna görə də fransız tarixçisi, numizmat[3] və arxeoloqu Jak De Morqan (1857-1924) erməni tarixşilərinin əslində ruhani olduqlarını və öz xalqlarının mənşəyini Müqəddəs Kitaba bağlamağa cəhd etdiklərini bildirirdi. Hətta erməni filisof, tarixçi və ermənişünas alim A.M.Qaraqaşyan (1818-1903) da ermənilərin istinad etmək üçün hər hansı bir tarixinin olmadığını etiraf edirdi.

Tarix elminin qədim erməni dövlətçiliyi ilə bağlı bir dənə də olsun sübutu olmayıb və yoxdur. Əfsanələr və dini ənənələr əsasında yaradılmış tarix təkcə erməni tədqiqatçılarını deyil, dünya şöhrətli alimləri də çaş-baş salıb. Erməni əsilli amerikalı tədqiqatçı Riçard Geybl Hovanesyan (1932-2023) Los-Ancelesdə nəşr olunan “Ermənistan Respublikası” kitabında erməni və xarici müəlliflərin elmi mənbələrini təhlil edərək bu məsələ ilə bağlı hiddətini gizlətmir: “Qısa bir dövr istisna olmaqla, Kilikiyadan Qafqaza qədər uzanan torpaqlar heç vaxt ermənilərin olmamışdır” [10].

Özlərinə tarix yaratmaq üçün əsaslı heç bir tarixi fakt tapa bilməyən ermənilər islah olmadan "mənbələrin altını üstünə gətirməkdə" davam edirlər. Haylar yalanın cığırında sanki qiyamətə gedirlər. Necə ki, A.Çexovun dediyi kimi: “...Yalan eyni meşədir: meşə nə qədər uzaqda olsa, ondan çıxmaq bir o qədər çətindir”. Uydurduqları yalandan qurtula bilməyən zavallı ermənilər....

## ƏDƏBİYYAT

1. Alper Qazigiray. Osmanlı′dan günümüze kadar vesikalarla ermeni terörü′nün kaynakları, İstanbul, 1982, 672 s.
2. An Illustrated Exposé by Erich Feigl. ARMENIAN MYTHOMANIA. Armenian Extremism: Its Causes and Historical Context EDITION ZEITGESCHICHTE • FREILASSING - SALZBURG. 2007.
3. Абекян М. История древнеармянской литературы. Ереван: издательство Академии Наук Армянской ССР, том I, 1948
4. Дьяконов И.М. Предыстория армянского народа, Ереван, 1968.
5. Дьяконов И.М. Малая Азия и Армения около 600 г. до н.э. и северные походы вавилонских царей // «Вестник древней истории», 1981, т. 1.

[3]Numizmatika (lat. *numisma* - sikkə) - sikkələr, onların zərb tarixi, qiyməti, istifadə edilmə müddəti, nominal və həqiqi dəyərlərini öyrənən köməkçi tarix elmi ilə məşğul olan tarixçi.

6. Esat Uras, Tarihte Ermeniler ve Ermeni Meselesi, Ankara, 1950.
7. История армянского народа с древнейших времён до наших дней. Под редакцией проф. М.Г.Нерсисяна. Издательство Ереванского университета, 1980. 460 с.
8. История Армении Моисея Хоренскаго, М., 1893, 363 с.
9. Ишханян, Б. Народности Кавказа. Состав населения, профессиональная группировка и общественное расслоение кавказских народностей. Статистико-экономическое исследование. Пг., 1916. (2016), 116 с.
10. Kamuran Gürün. Ermeni dosyası, Ankara, 1985.
11. Капанцян. "Хайаса - колыбель армян". Ереван, 1947 (2016). 287 с.
12. Гасанов Тахир. ВЕЛИКАЯ ЛОЖЬ О "ВЕЛИКОЙ АРМЕНИИ". Книга 1, Баку, издательство "Араз", 2009.
13. Раффи, Самвел, изд. "Айастан", 1970.
14. Лео. Собрание сочинений в 10-ти томах, т. I. История Армении. Древний период. Издательство «Айастан», Ереван, 1966 (на арм. языке)
15. Сеидов М. Г. Армянский Вандализм. Новосибирск. 2010. 288 стр.

УДК 94

*Наргиз Айдын кызы Расулова*
*Гянджинский Государственный Университет,*
*Институт Страноведения Гянджинского Отделения НАНА*

## ЛОЖЬ АРМЯНСКОЙ ИСТОРИИ

### *РЕЗЮМЕ*

*Ключевые слова:* Айк, «Великая Армения», история Армении, мифы, Хоренаци

Армяне, объясняя свою историю, отдают предпочтение религиозным, политическим и идеологическим установкам, а не историческим фактам. Мнения армянских историков, пытающихся освещать исторические события в своём регионе исключительно с армянской точки зрения, подверглись критической критике со стороны многих исследователей, и были представлены научно обоснованные факты. Примечательно, что среди армянских историков нет единого мнения об истории Армении.

В истории человечества этносы формировались на протяжении всей истории, не в полной изоляции, а во взаимодействии друг с другом, заимствуя друг у друга культуру, язык и обычаи. Такой подход отличает эволюцию этносов от мифа об «идеально чистой нации», преподносимого в терминах «современного национализма», и обеспечивает исторический реализм. Однако, к сожалению, армянские историки не занимают этой позиции и чуть ли не представляют себя «древнейшим народом» региона, «детьми пророка Ноя». Почему же армянские историки так упорно пытаются доказать, что армяне - древнейший народ, что их государство древнее всех других государств, малочисленный и «великий» народ? притворство тем, чем не является, алчность и посредничество

UDC 94

*Nargiz Aydin Rasulova*
*Ganja State University,*
*Institute of Regional Studies of Ganja Branch of ANAS*

THE LIE OF ARMENIAN HISTORY
*SUMMARY*

*Key words:* Hayk, “Great Armenia”, history of Armenia, myths, Khorenatsi

When explaining their history, Armenians prefer religious, political and ideological principles to historical facts. The opinions of Armenian historians who attempt to cover historical events in their region exclusively from an Armenian point of view have been critically examined by many researchers, and scientifically substantiated facts have been presented. It is noteworthy that among Armenian historians there is no consensus on the history of Armenia.

Throughout human history, ethnic groups have formed not in complete isolation but in interaction with one another, borrowing culture, language and customs. This approach distinguishes the evolution of ethnic groups from the myth of a “perfectly pure nation” presented in terms of “modern nationalism” and ensures historical realism. Unfortunately, however, Armenian historians do not take this position and often present themselves as an “ancient people” of the region, the “children of the prophet Noah.” Why do Armenian historians so persistently try to prove that Armenians are the most ancient people, that their state is older than all other states, that this relatively small and sparsely populated people is a “great” nation? The likely answer is: pretense of being something they are not, greed, and misrepresentation.

***Daxil oldu: 19.11.2025-ci il***